

# Zəfər tarixinin xronikası

## 28 oktyabr 2020-ci il

Həmin gün:

– Prezident İlham Əliyev Rusiyanın İnterfaks agentliyinə müsahibə verib.;

– Prezident İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində bildirib: "Müzəffər Azərbaycan Ordusu Zəngilanın Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli, Füzulinin Mandılı, Cəbrayılın Qazanzəmi, Xanağabulaq, Çüllü, Quşçular, Qaraağac, Qubadlının Qiyaslı, Ədilcə, Qılıcan kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

– Prezident İlham Əliyev İran İslam Respublikası Prezidentinin xüsusi nümayəndəsi, Xarici İşlər nazirinin müavini Seyid Abbas Əraqçinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.;

– Birinci vitse-prezident Mehriban Əliyevanın rəsmi "Instagram" hesabında paylaşım edib: "Silahlı münaqişələr zamanı mülki şəxslərin qətlə yetirilməsi 1949-cu il Cenevrə Konvensiyalarının və bütövlükdə beynəlxalq humanitar hüquq normalarının ən kobud şəkildə pozulması deməkdir. Erməni təcavüzkarlarının əli ilə daha neçə günahsız insan həlak olmalıdır ki, dünya birliyi bu cinayətləri dinməzcə seyr etməyə son qoysun? Həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm, yaralananların tezliklə sağalmalarını arzulayıram. Biz öz torpağımızı təcavüzkarlardan azad edəcəyik və bu cinayətlərə son qoyacağıq. Uca Tanrı Vətənimizi qorusun!";

– Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Rusiya Prezidenti Vladimir Putin arasında telefon danışığı olub. Dövlət başçıları Suriya böhranı və Dağlıq Qarabağdakı vəziyyəti müzakirə ediblər.;

– Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ədalət və İnkişaf Partiyasının (AKP) toplantısında bildirib: "Bizi Suriyadan Azərbaycana xarici qüvvələrin gətirilməsində ittiham edirlər. Lakin 2000-ə yaxın PKK/YPG terrorçusu Ermənistan tərəfindən 600 dollar maaş qarşılığında Qarabağda döyüşür".;

– Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop deyib: "Türkiyə indiyədək olduğu kimi, bundan sonra da tarixi həqiqətlərə və beynəlxalq hüquqa əsasən haqlı mübarizəsində və torpaqlarının müdafiəsində Azərbaycanın yanında olmağa davam edəcək".;

– Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev özünün "Twitter" səhifəsində bildirib: "Ermənistan ordusunun Azərbaycanın Bərdə şəhərində törətdiyi soyqırımı aktı nəticəsində ölənlərin sayı 20 nəfərə çatıb. Onlar hamısı günahsız mülki şəxslərdir. Mülki əhaliyə qarşı kasetli "Smerç" raketlərindən istifadə olunub. Biz Ermənistanın bu cinayətlərini yerində qiymətləndirmək üçün "Human Rights Watch" və "Amnesty International" təşkilatlarını ölkəmizə dəvət edirik".;

### Cəbhədə son vəziyyət

Humanitar atəşkəs rejiminə riayət etməyən Ermənistan silahlı qüvvələrinin bölmələri oktyabrın 27-si gün ərzində və 28-nə keçən gecə cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və cəbhəboyu zonaya yaxın yaşayış məntəqələrimizi müxtəlif silahlardan atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildirilib ki, döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Xocavənd, Füzuli, Zəngilan və Qubadlı istiqamətlərində davam edib. Düşmənin hücum etmək cəhdlərinin qarşısı qətiyyətlə alınıb, o, itki verərək geri çəkilib.

Cəbhənin müxtəlif istiqamətlərində Ermənistan silahlı qüvvələrinə qarşı görülən cavab tədbirləri nəticəsində düşmənin şəxsi heyəti arasında ölən və yaralananlar var. Onun bir neçə döyüş texnikası məhv edilib. Düşmənin artilleriya bölməsinə atəşlə zərərvurma nəticəsində atəş mövqeyində onun toplarla bir yerdə döyüş sursatları da məhv edilib.

Düşmənin avtomobil texnikalarının sayının əhəmiyyətli dərəcədə azalması ön xətdəki bölmələrin ərzaq, silah və sursatla təminatında problemlər yaradıb.

Cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də 1 ədəd "Osa" ZRK, 3 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 6 ədəd D-30, 5 ədəd D-20 və 1 ədəd D-44 topu, 2 ədəd 2A36 "Qiasint-B" topu, 1 ədəd 120-mm minaatan, 1 ədəd "Konkurs" tank əleyhinə raket kompleksi və 6 ədəd avtomobil texnikası sıradan çıxarılıb.

### Ermənistanın dinc əhalimizə qarşı cinayətlərinin son statistikası

Azərbaycan Respublikasının Baş Prokurorluğu Ermənistanın təxribatları nəticəsində sentyabrın 27-dən oktyabrın 28-i saat 11:00-dək dinc əhaliyə qarşı törədilmiş cinayətlərin statistikasını təqdim edib.

Baş Prokurorluğun mətbuat xidmətindən bildirilib ki, Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində indiyədək mülki şəxslərdən 69 nəfər həlak olub, 322 nəfər isə xəsarət alıb. Bundan başqa, Ermənistanın ordusunun intensiv ağır artilleriya və raket atəşi nəticəsində 2338 ev, 92 çoxmənzilli yaşayış binası və 415 mülki obyekt yararsız vəziyyətə düşüb.



***

Azərbaycan Respublikasının Baş Prokurorluğu Ermənistan ordusunun Bərdə şəhərini raket atəşinə tutması ilə bağlı yeni məlumat yayıb.

Baş Prokurorluğun mətbuat xidmətindən bildirilib ki, oktyabrın 28-də saat 13 radələrində Ermənistan silahlı birləşmələri tərəfindən Bərdə şəhərinin dinc sakinlərin sıx hərəkətdə olduğu və ticarət obyektlərinin yerləşdiyi əraziyə beynəlxalq hüquqla qadağan olunmuş kaset bombalarından istifadə edilməklə zərbələr endirilməsi nəticəsində 14 mülki şəxs həlak olub, 40-dan çox şəxs xəsarət alıb. Şəhərdə mülki infrastruktur obyektlərinə və nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

Dünya KİV-i Vətən müharibəsindən yazır

Misirin "Aldiplomasy" portalında tədqiqatçı jurnalist Əşrəf Əbu Urafənin "Azərbaycan Ordusu Xocalı soyqırımını törədən Ermənistana ağır zərbələr endirib" sərlövhəli məqaləsi yerləşdirilib.

Müəllif 28 il əvvəl Ermənistanın Azərbaycanın Xocalı şəhərində törətdiyi soyqırımının, habelə mülki insanlara qarşı digər cinayətlərin cavabının bu gün döyüş meydanında verildiyini qeyd edib.

Misirin "Akhbarelyom", "Nile1" və "Qalyubiyenews" informasiya portallarında isə Azərbaycan Xarici İşlər Nazirliyinin Ermənistanın Bərdə şəhərinə raket hücumu ilə bağlı bəyanatı yayılıb.

***

İspaniyanın beynəlxalq münasibətlər və geosiyasi təhlil sahəsində fəaliyyət göstərən "Descifrando La Guerra" internet portalı Dağlıq Qarabağ münaqişəsinin tarixi, Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti, o cümlədən işğalçı ölkənin növbəti təxribatına Azərbaycanın cavabı, habelə beynəlxalq ictimaiyyətin bu məsələ ilə bağlı mövqeyi, Türkiyənin Azərbaycana dəstəyi barədə material yayıb.

*"Xalq qəzeti"*